BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2014

UOT 94(479.24)

# SOVET HAKİMİYYƏTİ ORQANLARININ SƏHV SİYASƏTİNƏ QARŞI GENİŞLƏNƏN KƏNDLİ HƏRƏKATI (1920-1930-cu illər)

**N.Z.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***nurr_mamedov@mail.ru***

*Məqalədə Azərbaycanı işğal edən XI ordunun özbaşınalığına, soyğunçuluq və qəddarlığına qarşı xalq üsyanlarının və kəndli hərəkatının genişlənməsi tədqiq edilir. Göstərilir ki, mövcud rejim və sovet hakimiyyətinin səhv siyasətinə qarşı genişlənən kəndli hərəkatı milli-azadlıq hərəkatının tərkib hissəsi, siyasi və konstitusiya hüquqlarını müdafiə edən ümumxalq hərəkatı idi.*

**Açar sözlər**: sovet, hakimiyyət orqanları, Az.MİK, kəndli hərəkatı, siyasət, üsyan, qolçomaq

Hakimiyyəti ələ keçirən bolşeviklər ilk gündən yerli əhaliyə qarşı amansız oldular, Sovet hakimiyyəti uğrunda mübarizə bayrağı altında xalqımıza qarşı zorakılıq və qəddarlıq siyasəti apararaq görkəmli ziyalılarımızı, partiya və dövlət xadimlərini, mədəniyyət və incəsənət nümayəndələrini, şəhərdə və kənddə əmək qabaqcıllarını, kəndin varlı təbəqəsi olan qolçomaqları sıxışdırmaq və məhv etmək siyasətinə keçdilər. Əslində bu siyasət əsl soyqırım siyasətinə bənzər dəhşətli və faciəli hadisələr idi. Sovet dövlət aparatı ət maşını kimi günahsız insanları məhv edir, güllələyir, əlçatmaz yerlərə – Sibirə, Qazaxıstana sürgün edirdi. Bakıda və Azərbaycanın qəzalarında sovet hakimiyyət strukturları yaranan ilk gündən verdiyi bütün vədləri kobudcasına pozaraq kütləvi qətl və qarətlərə başladı, milli kadrlara və Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərlərinə qarşı qırmızı terroru genişləndirdi. Yenicə yaranan Müvəqqəti İnqilab Komitəsinin yerli icra orqanları və onların bolşevik-daşnak nümayəndələri xalqı vəhşicəsinə talan və qarət edir, evlərə soxularaq qiymətli əşyaları, xalça-palaz, kilimləri, qız-gəlinlərin, qadınların üst qızıl əşyalarını, boyunbağı, üzük, sırğa, qol saatlarını zorakılıqla müsadirə edir, xalqın var-yoxunu əlindən alırdılar. Belə zorakılıq əməlləri, demək olar ki, Azərbaycanın hər yerində baş verirdi. Sovet hakimiyyətinin qurulmasını sakitcə və sükutla

qarşılayanlar, onu ümidlə gözləyənlər və tərəddüd edənlər səhv etdiklərini başa düşdülər. XI Ordunun özbaşınalığı, qarətçilik, hərc-mərclik, xüsusən günahsız adamların güllələnməsi xalqın qəzəbinə və bu qəzəb dalğası isə üsyanlara səbəb oldu (9, 45).

M.Ə.Rəsulzadə yazırdı ki, bolşeviklər hakimiyyəti ələ alan günün səhəri verdikləri bütün vədləri pozdu, onun xülyadan başqa bir şey olmadığını qeyd etdi, imzaladığı vədin mürəkkəbi qurumamış düşmən süngüsü ilə özünün yırtıcı mahiyyətini göstərdi. «Artıq hər kəs aldandığını görürdü. «ilanın ağına da, qarasına da lənət» deyirdilər» (16, 69).

Sovet hakimiyyət orqanlarının səhv siyasətinə qarşı ilk və ən güclü üsyan Gəncə üsyanı olmuşdur. Üsyançıların sayı 10 min nəfəri ötmüşdü. Lakin qüvvələr nisbətinin qeyri-bərabərliyi və ermənilərin xəyanəti nəticəsində üsyan amansızcasına yatırıldı, 12 min gəncəli öldürüldü. Ancaq XI Ordu qüvvələrindən də 9 minə qədər hərbçi öldürüldü. Gəncə üsyanından sonra nəinki milli ordu hissələrinə, hətta bolşeviklərin özlərinin yaratdıqları inqilab komitələrinə də şübhə ilə yanaşmağa başladılar (9, 46).

Gəncə üsyanının qəddarlıqla yatırılmasına baxmayaraq Tərtərdə üsyan başladı. Tərtər üsyanı böyüyərək Ağdam, Şuşa, Bərdə, bütün Qarabağ bölgəsinə yayıldı. Üsyana general Nuru paşa, polkovnik Zeynalov rəhbərlik edirdilər. Qarabağ üsyanının ardınca Şəki, Zaqatala, Balakən, Qutqaşen, Qax, Lənkəran, Salyan, Quba və s. bölgələrdə üsyanlar oldu. Bir sözlə, üsyan dalğaları bütün Azərbaycanı əhatə etdi. M.Ə.Rəsulzadə yazırdı: «…işğaldan bir ay sonra bütün Azərbaycan məmləkətinin müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk eyləmişdi. Rus ordusunun ədəb və əxlaqa uyuşmayan hərəkətinin, təhqirə məruz qaldığını duyunca xalq üsyan etdi… Üsyan edilməyən bir yer qalmamışdır”. Hər bir üsyana, onun başlanmasına əsas səbəb olan hakimiyyətin və hökumət nümayəndələrinin təhqiramiz siyasətini kəskin pisləyən M.Ə.Rəsulzadə daha sonra yazırdı: «…Fəqət, bu üsyanlar dəxi olmasa idi Azərbaycan xalqı bilməm hansı vəqələrlə öz namusunu müdafiə etmiş olduğunu isbat edəcəkdi?!» (16, 70).

Tarixşünaslıqda az diqqət verilən bir mühüm məsələni də araşdırmaq lazımdır. Belə ki, XI Ordu Azərbaycanı işğal edib başa çatdırandan sonra müqavilə və danışıqlara əsasən Anadolu torpaqlarını düşməndən təmizləmək üçün Türkiyəyə getməli idi. Lakin bu yerdə də rus ordusu danışıqları pozdu, vədini unutdu və Azərbaycan ərazisində yerləşdirildi. Görünür, bu işdə Leninin və sovet rəhbərliyinin də razılığı olmuşdur. Yoxsa ki, XI Ordu hissələri özbaşına respublika ərazisində qala bilməzdi. Bu, elə bir zaman idi ki, Azərbaycan iqtisadiyyatı dağılmış, əhalinin sosial vəziyyəti xeyli ağırlaşmışdı. Böhran keçirən Azərbaycan iqtisadiyyatı, demək olar ki, dilənçi halına düşmüş, kəndlər öz çiyinlərinə böyük bir ordunu ərzaqla təmin etmək kimi ağır yük götürməli olmuşlar. Ölkədə isə ərzaq çatışmırdı. Eyni zamanda Birinci dünya müharibəsi nəticəsində qaçqın olmuş ermənilər Ermənistana getmək əvəzinə Bakıda dayanır, çörək və sığınacaq alırdılar. Yaranmış ağır vəziyyəti nəzərə

alaraq AK(b)P MK 1920-ci il sentyabrın 1-də olmuş iclasında belə bir qərar qəbul etdi ki, Bakıya qaçqınlar qəbul edilməsinlər (15, 15). 1920-ci il sentyabrın 20-də isə Azərbaycan SSR-nin Moskvadakı daimi nümayəndəsi B.A.Şaxtaxtinskinin Leninə və Çiçerinə verdiyi məlumatda bildirilirdi ki: «…hazırda kəndlilərin vəziyyəti həddən artıq ağırdır, Onlar hətta lampa nefti ala bilmirlər, çünki onların kəndə neft göndərdikləri arabalar yolda Qızıl Ordu tərəfindən müsadirə edilir, …öz çörəyi ilə dolanan Azərbaycan indi çörəksiz qalıb» (15, 14).

Azərbaycanda sovet hakimiyyəti qurulan ilk günlərdən kəndlilərə və fəhlələrə qarşı siyasəti düzgün qura bilmədi. Hakimiyyət rəhbərləri və yerli çinovniklər hələ də başa düşə bilmirdilər ki, dövləti və şəhər əhalisini ərzaqla təmin edən kəndlilərdir. Ancaq 20-ci illərin əvvəllərində respublikanın kənd təsərrüfatında vəziyyət acınacaqlı idi və dərin böhran keçirirdi. Belə bir tarixi şəraitdə ərzaq ehtiyatına az-çox malik olan təsərrüfatlar isə ya varlı təsərrüfatlar və yaxud da ki, qismən ortabab təsərrüfatlar ola bilərdi. Sovet hakimiyyətinin Lenin başda olmaqla rəhbərləri isə belə hesab edirdilər ki, həmin varlı təsərrüfatlar kapitalist elementləridir və guya yeni hakimiyyətin düşmənləridir. Buna görə də, hakimiyyət orqanları varlı təsərrüfat sahiblərini «qolçomaq» və «bandit» adlandırıb onları kütləvi şəkildə həbs etməyə, sürgün etməyə, «təhlükəli» olanları isə güllələməyə başladılar. Kommunist partiyasının və sovet hökumətinin belə səhv siyasəti milyonlarla insan qırğınına və ağır fəlakətə səbəb oldu. Sovetləşmənin ilk günlərində cəza və həbslərə rəvac verildi. 1920-ci il mayın 5-6-da Ümumbakı partiya konfransı oldu. Həmin konfransda daşnak A.İ.Mikoyan «Hazırkı vəziyyət» haqqında etdiyi çıxışında xanların, bəylərin və qolçomaqların məhv edilməsi siyasətini partiya vəzifəsi kimi qarşıya qoydu və onlara qarşı sinfi mübarizəni sürətləndirməyi vacib bildi (12, 111). Ancaq Mikoyan heç daşnakların adını çəkmədi. Həmin çıxış əsasında Ümumşəhər konfransı belə bir qərar qəbul edir: «Azərbaycanda sovet çevrilişindən sonra (hörmətli oxucu, diqqət ver: bolşeviklər özləri də əvvəllər inqilab yox, çevriliş ifadəsi işlədirdilər - M.N.) partiyanın ən mühüm vəzifəsi…bəylərin, xanların və ağaların torpaqlarını müsadirə etməkdən» ibarətdir (4, 18). Beləliklə, yoxsul kəndlilərə arxalanmaqla kənddə sinfi mübarizənin dərinləşməsinin əsası qoyulur və qolçomaqlar haqqında düşmən obrazı yaradılır.

Sovet hakimiyyətinin ilk illərində varlı qolçomaq təsərrüfatları cəmi 5-6 faiz olmalarına baxmayaraq, onlara qarşı ağır sinfi siyasət yeridilirdi. 1925/1926-cı təsərrüfat ilində bütün kənd təsərrüfatı vergisinin yarıya qədəri qolçomaq təsərrüfatlarının üzərinə qoyulmuşdu (8, 43).

SSRİ MİK və XKS-nin 20 mart 1925-ci il tarixli qərarı ilə mülkədar hesab edilən varlılar, onlara məxsus torpaqlarından istifadə etmək və hətta həmin ərazidə yaşamaq hüququndan məhrum edildi. Bu qərarla mülkədarların və qolçomaqların qanuni hüquqları ləğv edildi, onların sürgün olunması prosesi başlandı (2, i.176, v.23).

1928-ci ilin əvvəlində Göybirliyinin rəsmi məlumatına görə, Azərbaycan

kəndində (kolxozlarda) əhalinin sosial tərkibi belə idi: ortabablar- 62,8 faiz, yoxsullar – 21,8 faiz, varlılar – 15,8 faiz. Varlı kəndlilərin içərisində qolçomaq təsərrüfatı isə 8 faiz idi (2, i.261, v.11). 1929-cu ildə rəsmi məlumata görə respublikada əhalinin 45,8 faizi yoxsul kəndlilər, 47,7 faizi ortabablar, 6,5 faizi isə qolçomaqlar idi (20, 1931 №9, 78). Buna baxmayaraq kənd təsərrüfatı vergisinin çoxunu varlı təsərrüfatlar verirdi.

Tarixşünaslıq ədəbiyyatlarının diqqətlə araşdırılması və arxiv sənədlərinin təhlili bizə belə bir fikir söyləməyə tamamilə haqq qazandırır ki, 20-30-cu illərdə qolçomaqlar sovet hakimiyyətinə qarşı mübarizə aparan güclü siyasi qüvvə olmamışlar. Bu baxımdan Azərbaycan şəraitində qolçomaq təsərrüfatları sosialist kənd təsərrüfatını məhv edə biləcək qüvvəyə malik deyildilər (12, 112). Bunu faktlar, rəqəmlər və olaylar da təsdiq edir.

Respublikada elliklə kollektivləşmə siyasətinə keçidlə əlaqədar 1929-cu ildən başlayaraq qolçomaqların bir sinif kimi ləğvi siyasətinə keçid başlandı və bunun nəticəsində Azərbaycan kəndində sinfi mübarizə daha da şiddətləndi. Hakimiyyət orqanlarına qolçomaq təsərrüfatlarını müəyyən etmək tapşırığı verildi.

Qolçomaqlara qarşı düşmən münasibət onları qəzəbləndirdi. Qazax, Ağdam, Cəbrayıl, Quba, Şamxor və başqa yerlərdə qolçomaqların açıq çıxışları oldu (2, i.5, v.3-5). Bu da, səbəbsiz deyildi. Qolçomaqlar deyirdilər ki, əgər bizim torpağımızı əlimizdən alsalar onların başını üzəcəyik. Qolçomaqlar deyirdilər: dövlət düzgün rəhbərlik edə bilmir, ticarət monopoliyası onların əlindədir, bizə ticarət etmək qadağan edilib, xalq acdır və i.a. Dəllər camaatı qolçomaqlara qoşulub yerli hakimiyyət orqanlarının rəhbərlərini öldürməklə hədələyirdilər.

Vəziyyətin kritik həddə çatması Mərkəzi narahat etməyə bilməzdi. İş o yerə çatdı ki, AK (b)P MK-nın rəhbəri Gikalo 1928-ci ilin martında məxfi qrif ilə rəsmi Moskvaya, ÜİK (b) P MK-ya, Molotova xüsusi material hazırlayıb göndərdi (2, i.24, v.3-4). Yeri düşmüşkən qeyd etmək lazımdır ki, həmin material mövcud vəziyyəti və siyasi durumu az-çox təhlil etmək baxımından çox əhəmiyyətli bir sənəddir. Həmin sənəddə Azərbaycanda qolçomaqlara qarşı aparılan siyasətin səhv olduğu, kollektivləşmədə tələsikliyə yol verildiyi, AK (b) P MK rəhbərliyində ciddi nöqsanlar olduğu bildirilirdi. Göstərilir ki, ciddi səhvlərinə görə Ağaverdiyev MK-nın tərkibindən, H.Sultanov MK şöbə müdiri vəzifəsindən azad edilib, 8 komissarlığın işi ağırlaşıb, rəhbərliyin xalq təsərrüfatına işi zəifdir, Zaqafqaziya Ölkə Komitəsi bizə kömək etmir. Azərbaycanda hazırkı dövrün siyasi xarakteristikası təhlil edilir və göstərilir ki, kollektivləşmə işi və qolçomaqlara münasibət düzgün aparılmadığına görə, hətta bizim (yəni dövlətin – N.M.) ciddi səhvimiz olan qolçomaqların ixtiyarında olan torpaqların müsadirə edilməsi qeyri-qanunidir. Rəhbərliyin səhvi nəticəsində Şamxor, Samux, Gəncə bölgələrində, DQMV-də qolçomaq çıxışları baş vermiş, bandit qrupları yaranmışdır. Ağdam, Ağcabədi, Salyan rayonlarında, Naxçıvan dairəsində kollektivləşmə əleyhinə çıxışlar olmuşdur

(2, i.24, v.5-9). Materialda səhvlər açıq etiraf edilir. Göstərilir ki, qolçomaqlara münasibətdə səhvlərə yol verilmişdir, Qasım İsmayılov, Ağdam, Quba və b. rayonlarda tələsikliyə yol verilmişdir. Bəli, bu, respublikanın birinci şəxsinin acı etirafı idi. Buraxılan nöqsanlar AK (b) P MK rəhbərliyini ciddi narahat etmiş və bu, 1930-cu il 14 aprel qərarında öz əksini tapmışdır. Qərarda göstərilirdi ki, Azərbaycanda kollektivləşmə üçün 4 il vaxt verilməsinə baxmayaraq ÜİK (b) P MK-nın 5 yanvar 1930-cu il qərarı pozulmuş, kobud əyintilərə, qolçomaqlara qarşı səhvlərə yol verilmişdir (4, 546-547).

AK (b) P MK-nın kənd təsərrüfatının elliklə kollektivləşməsinə keçidlə əlaqədar olaraq qolçomaqların bir sinif kimi ləğv edilməsi barədə 23 fevral 1930-cu il gizli məktubu (3, i.43, v.3) respublikanın bütün rayonlarına göndərildi. Məktubda göstərilirdi ki, yerli hakimiyyət orqanları qolçomaqlara qarşı daha sərt mövqe tutmalı, onların bütün malını və avadanlıqlarını müsadirə etməli, özlərini isə sürgün etməlidirlər. Bu gizli göstəriş Şəki-Zaqatala, Lənkəran, Gəncə bölgəsində, Şirvan, Şamxor, Qazax, Ucar rayonlarında qolçomaqların kütləvi şəkildə məhv edilməsinə səbəb oldu. Zaqafqaziya siyasi idarəsi tərəfindən hazırlanan gizli sənəddə göstərilirdi ki, hökumətin həbs və sürgünetmə siyasətinə cavab olaraq qolçomaq dəstələri Gəncədə, Qarabağda, Şirvanda, Şamxorda, Gədəbəydə, Tovuzda, Hacıkənddə, Samuxda, Qasım İsmayılovda, Lənkəranda və s. yerlərdə çıxışlar etdilər. Qolçomaqlar məcbur olub terror aktları da törətməyə, partiya və Sovet rəhbərlərini öldürməyə başladılar. 1930-cu ilin noyabr ayında Azərbaycanda 19 terror aktı törədildi, 41 qolçomaq qrupunun fəaliyyəti genişləndi. 65 qolçomaq hərəkatında 1240 nəfər iştirak edirdi (3, i.43,v. 4). Hətta Zəyəmdə noyabrın 14-də silahlı çıxış edən qolçomaqlar Bakı-Tbilisi dəmir yolunu ələ keçirmişdilər. Gədəbəy rayonunun Söyüdlü, Slavyanka, Nərimankənd, Süleymanlı, Ağdaş və s. kəndlərində qolçomaqlar hakimiyyət orqanlarının binalarını mühasirəyə almış, onlara ultimatum vermişlər. Dağ atıcı briqadası artilleriyası köməyə gəlmiş, mühasirəni dağıtmışdı (3, i.43, v.4). Qolçomaq çıxışları Gəncə, Biləsuvar, Lənkəran, Salyan, Cəlilabad və s. rayonlarda da baş vermişdi (3, i.43, v.5-10). Vəziyyətin ciddi olduğunu bilən Zaqafqaziya Ölkə Komitəsi AK (b)P MK-ya göndərdiyi gizli sənəddə bildirirdi ki, 1930-cu ilin iyulunda Nuxa-Zaqatala, Kürdüstan-Zəngəzur və Gəncə qəzalarında baş verən qiyamları yatırmaq üçün əlavə silahlı qüvvə göndərsin (3, i.44, v.24-25).

Tədqiqat zamanı maraqlı faktlar aşkar edildi. Məlum oldu ki, bir çox rayonlarda kənd Sovetlərinin rəhbər üzvləri qolçomaqlar tərəfinə keçmiş, onların haqqını müdafiəyə qalxmış və sovet hakimiyyəti orqanlarının ədalətsiz mövqeyinə etiraz əlaməti olaraq seçkiləri boykot etmiş və müqavimət hərəkatına qoşulmuşlar. Bu hərəkatlar getdikcə böyüyərək kəndli hərəkatına çevrilirdi. Rayonların əksəriyyətində, o cümlədən Gəncə, Lənkəran, Sabirabad, Göyçay və s. Rayonlarda bu cür antisovet hərəkatlar (bəzi hallarda üsyanlar) baş vermişdi (3, i.44, v.5-8). Ümumiyyətlə, 1931-ci ilin əvvəlində respublika ərazisində tərkibi 1200 nəfərdən ibarət 132 qolçomaq dəstəsi fəaliyyət

göstərirdi (14, 61). Qolçomaqların çıxışları sonralar da davam etmişdi. 1934-cü ildə Sovetlərin hesabat kompaniyası vaxtı Dəvəçi, Göyçay, Xaçmaz rayonlarında kənd sovetlərinin rəhbər fəalları öldürülmüşdü (17, i.322, v.23-24).

1930-cu ildə Azərbaycanda siyasi rejimin göstərdiyi səyinə baxmayaraq kollektivləşmə 20 faizdən yuxarı qalxmadı, hətta az qala dövlət ondan imtina etmək istədi. Respublikanın kənd təsərrüfatı zəif idi və kolxozlara daxil olan az idi. Hətta İkinci dünya müharibəsi ərəfəsində sosialist istehsalı qələbə çalmamışdı (18, 692). 1933-1934-cü illərdə kolxozlar ixtisar edilmiş, minlərlə kəndli kolxozdan üz döndərmişdi. Bolşeviklərin ümidi elə qırılmışdı ki, yeni həyat tərzi yaranmamış, kolxozlar kənddə sosializmin dayaqlarına çevrilməmişdi. Belə bir vəziyyətdə rəsmi Moskva və Bakı bir çox rəhbər işçilərini, prokurorları, DSİ-nin agentlərini kütləvi şəkildə kəndlərə göndərdilər. Onlar təbliğat kompaniyasını genişləndirir, şirin vədlər verir, qolçomaqlar üzərinə «əmək günləri» və əlavə vergilər yükləyirdilər. Prokurorlar açıq deyirdilər ki, ərzaq vergisini ödəməyən qolçomaqlar güllələnəcəklər. Ancaq bütün bu səylərə baxmayaraq Azərbaycan kəndi geridə qalırdı. Texnika çatışmırdı, traktorçular, aqronomlar, texniklər və digər kadrlar çatışmırdı. Maddi vəsait yox idi. Bir çox rayonlarda bəzi traktor sürücüləri işdən imtina edirdilər. Nəqliyyat iflic vəziyyətinə düşmüşdü. Tarlalarda yığılan pambıq yağışın altında qalıb xarab olurdu. Ən böyük pambıq anbarları olan Goranboy və Yevlax rayonlarında vəziyyət acınacaqlı idi. Belə bir vaxtda kəndlilər həyəcanlı şəkildə xəstəliklərə düçar olurdular. Xəstəlik bütün Azərbaycanda yayılmışdı (18, 700-701). Kəndliləri maraqlandıran heç nə qalmamışdı. Dövlət yenə başını itirmişdi. Bu dəfə bütün günahlar kolxoz sədrlərinin üzərinə atıldı. Hətta Bərdə rayonunda 311 nəfər, Salyan rayonunda 180 nəfər kolxoz rəhbəri məhkəməyə verildi. Bu cür haqsızlıqlar Sabirabad, Nuxa, Ağdam, Naxçıvan, Qarabağ, Gəncə bölgələrində iğtişaşlara və sovet hakimiyyətinə qarşı üsyanlara səbəb oldu. Yüzlərlə kəndli İrana və Türkiyəyə qaçdı. Minlərlə kəndli kolxozdan üz döndərdi. 1933-cü ildə Noraşendən 350 kəndli, Masallıdan 1110 kəndli ailəsi ilə xaricə qaçdı. Az. MİK müfəttişinin məlumatına görə, 1932-1933-cü illərdə 200 mindən çox kəndli kolxozdan çıxmışdı. Respublikanın pambıq rayonlarında kollektivləşmə tam iflasa uğramışdı. Heyvandarlıq kolxozlarında isə vəziyyət daha ağır idi. Çox hallarda mal-qaranı dövlətə vermək istəməyən adamlar onları kütləvi şəkildə məhv edirdilər. Dövlət orqanları, DSİ-nin satqın agentləri istədiyinə nail ola bilmirdilər. Sovet dövlətinin kolxoz siyasətinə qarşı çıxışları dayanmırdı. 1933-cü ilin birinci yarısında 144 «bandit çıxış» olmuşdu. Kolxoz hərəkatına qarşı belə çıxışlar 1935-ci ilə qədər davam etmişdi (14, 303, 358-359).

Respublikada kəndli hərəkatının artmasına güclü təsir edən amillərdən biri də kollektivləşmənin zorakılıqla həyata keçirilməsi oldu. Ona görə ki, kollektivləşmə siyasəti partiya və hakimiyyət orqanları tərəfindən düzgün qurulmamış, əhalinin sosial-iqtisadi, siyasi və mədəni-psixoloji vəziyyəti nəzərə alınmamışdı. Ağına-bozuna baxmadan elliklə kolxozlara yazılma hallarını həyata keçirən başı pozuq məmurlar bellərinə tapança bağlayıb (akad. Ziya

Bünyadov) kəndlilərə hədə-qorxu gələrək onları bu işə məcbur edirdilər. Yuxarıların xoşuna gəlmək və rəhbərin «molodes»ini qazanmaq üçün bəzən nəinki ayrı-ayrı kəndli ailələrini, hətta bütün kənd və ya bütöv bir rayon bir günün içərisində «kollektivləşirdi». Sonra isə həmin kəndlilər kolxozlardan üz döndərirdilər. Belə hallar respublikanın bir çox rayonlarında, o cümlədən Qasım İsmayılov, Yevlax, Bərdə, Şamxor, Ağdam və s. rayonlarında olmuşdur. Nəticədə zorla kolxozlara cəlb edilənlər indi bu siyasətə qarşı çıxır və hətta silahlı müqavimət göstərərək öz hüquqlarının müdafiəsinə qalxırdılar. Bu çıxışlar antisovet üsyanı kimi ölkədə geniş yayılmışdı. Dediklərimizi faktlar da təsdiq edir. Məsələn, təkcə 1931-ci ildə kollektivləşməyə qarşı 132 qaçaq dəstəsi mübarizə aparırdı. Kollektivləşmənin dörd ilində bu siyasətə qarşı 400-dən çox silahlı qaçaq dəstəsi mübarizə aparmışdı. Samux, Qazax, Qarabağ, Goranboy və Tovuz bölgələrində qaçaqçılıq edənlərin sayı 5 mindən çox idi (7, 176-177). Qaçaqçılıq hərəkatı isə kəndli hərəkatının tərkib hissəsi idi.

Sovet hakimiyyəti antisovet üsyanlara amansız divan tuturdu. Təkcə Gəncə və Gədəbəydə ələ keçirilmiş 1028 nəfərdən 366 nəfəri güllələnmiş, qalanları isə həbs və sürgün edilmişdi. Zəyəm əməliyyatında 366 nəfər, Naxçıvan MSSR-in Keçili kəndindən isə 70 nəfər adam güllələnmişdi (7, 176-177). Belə antisovet üsyanlar Quba, Nuxa, Göyçay, Gəncə və s. yerlərdə də olmuşdur.

Sovet hakimiyyətinə qarşı ən güclü kəndli hərəkatlarından biri Şəki üsyanıdır. 1930-cü ilin aprelində Şəkidə başlayan üsyanın təsiri ilə Qax, Balakən, Zaqatala və digər ərazilərdə geniş kəndli hərəkatları başlandı. Respublikanın 8 rayonunu əhatə edən hərəkatın mərkəzi Baş Göynük kəndi idi. Ağır vergi siyasəti, xalqın maddi və mənəvi dünyasına, həyat və düşüncə tərzinə yönələn təcavüz Şəki üsyanının başlıca səbəbləri idi. Sovet hakimiyyəti orqanlarının müstəmləkəçilik və ruslaşdırma siyasəti, «mayasında allahsızlıq olan Lenin bayrağı altında yaşayan satqın məmurların» (B.Vahabzadə) özbaşınalığı Şəki üsyanının alovlanmasına, bütün Zaqafqaziya hakimiyyət orqanlarının vəlvələyə düşməsinə səbəb oldu. Rəsmi sənədlərdə də qeyd edilirdi ki, «Zaqatala-Nuxa mahalındakı üsyançıların əsas şüarı Qafqazın azad edilməsidir» (11, 15-16). Üsyan aprelin 12-də başlandı, sürətlə hərəkət edən üsyançılar ertəsi gün, yəni aprelin 13-də Şəki şəhərini ələ keçirdilər. Üsyançıların sayı əvvəl 200 nəfər idi, ancaq getdikcə artaraq yerli əhalinin hesabına 600 nəfərə çatmışdı. Üsyançılar Qax, Zaqatala, Balakən, Əliabad, İlisu və s. yerlərdə olan dustaqları azad etdilər. Üsyançılar belə bir xəbəri yayırdılar ki, Moskvada, Tiflisdə, Bakıda Sovet hakimiyyəti yıxılıb (11, 37, 70).

Sovet hakimiyyət orqanları digər üsyanlar kimi, Şəki üsyanını da qan içində boğdu. Üsyana və üsyançılara divan tutuldu. Şəki-Zaqatala üsyançılarından 180 nəfər həlak oldu, 150 nəfər yaralandı, 865 nəfər həbs edildi. Hökumət qoşunlarından isə 73 nəfər öldürüldü, 79 nəfər yaralandı (10, 120). Ancaq bu hələ son cəza həddi deyildi. Hökumətin daş ürəyi hələ soyumamışdı. Az sonra Şəki üsyanını bəhanə edən hakimiyyət orqanları 1300 nəfər (1, 192) üsyan rəhbərlərini, kənd fəallarını, ağsaqqalları və ziyalıları güllələdi.

Şəki üsyanı yatırıldıqdan sonra canlarını qaçıb qurtaran döyüşçülər meşələrə və dağlara çəkilərək mövcud rejimə qarşı mübarizələrini partizan müharibəsi formasında davam etdirdilər. Partizan müharibələri və qaçaqçılıq hərəkatı respublikanın, demək olar ki, bütün bölgələrində geniş yayılmışdı. Bütün bu hərəkatlar kəndli hərəkatının tərkib hissəsi kimi mövcud rejimə qarşı, sovet hakimiyyətinin müstəmləkəçilik və ruslaşdırma siyasətinə qarşı, islam dininin adət-ənənələrinə xor baxan manqurtlara qarşı apardıqları mübarizənin haqqa və ədalətə səsləyən çağırışları, özünün hüquqlarını müdafiə edən ümumxalq hərəkatı idi.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Dövlət Arxivi, f.379, siy.3. iş 2a
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, f.1, siy.74
3. ARPİİ SPİHDA, f.1, siy.231.
4. Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. Bakı: Azərnəşr, 1987, 712 s.
5. Azərbaycan tarixi. 7 cilddə. VI c. Bakı: Elm, 2000, 516 s.
6. Azərbaycan Kommunisti, 1989, №2.
7. Cəfərov Cəfər. Azərbaycan kəndi kollektivləşmə illərində (1920-ci illərin sonu – 30-cu illər). Bakı: Elm, 2008, 299 s.
8. Əlimirzəyev X. Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı: Azərnəşr, 1963, 208 s.
9. İbişov Fəzail (İbrahimli). Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı: Mütərcim, 1996, 168 s.
10. Qasımov Cəlal. Yaddaşın bərpası. Bakı: Mütərcim, 1999, 254 s.
11. Manaflı Həbibulla. Şəki üsyanı. Bakı: Zaman, 2000, 111 s.
12. Məhərrəmov N. Getsin, gəlməsin... Bakı: Azərnəşr, 1992, 144 s.
13. Məmmədov E.İ. Kənd təsərrüfatının elliklə kollektivləşməsi ərəfəsində Azərbaycan kəndində sinfi mübarizə. (1930-1937-ci illər). Bakı: Azərb. SSR EA, 1967, 151 s.
14. Məmmədov N. Azərbaycan dövlətçiliyi tarixində Az.MİK-in yeri və rolu (1921-1938-ci illər). Bakı: BDU, 2012, 508 s.
15. Rəfiyev B. Aysberqin sualtı hissəsi (1920-ci illər). Bakı: Azərnəşr, 1995, 55 s.
16. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
17. Rusiya Federasiyası Dövlət Arxivi, f.3316, siy.27, iş 322.
18. Баберовский Й. Враг есть везде. Сталинизм на Кавказе. М.: Российская полит. энциклопедия, 2010, 855 s.
19. Обзор деятельности правительства за 1925-1926 гг. Баку, 1927; за 1929-1930 гг. Б.: Аз.ЦИК, 1931.
20. Журн."Революционный Восток", 1935, №2.

## РАСТУЩЕЕ КРЕСТЬЯНСКОЕ ДВИЖЕНИЕ ПРОТИВ ОШИБОЧНОЙ ПОЛИТИКИ ОРГАНОВ СОВЕТСКОЙ ВЛАСТИ (1920-1930-е ГОДЫ)

**Н.З.МАМЕДОВ**

**РЕЗЮМЕ**

В статье исследуется расширение крестьянского движения и народных выступлений против самовольной, грабительской и жесткой политики оккупировавшей Азербайджан XI Красной армией. Показывается, что растущее против существующего режима и ошибочной политики Советской власти крестьянское движение являлось составной частью национально-освободительного движения, народное движение защищающее политические и конституционные права.

**Ключевые слова**: советский, органы власти, Аз.ЦИК, крестьянское движение, политика, восстание, кулаки

## GROWING PEASANT MOVEMENT AGAINST THE MISGUIDED POLICIES OF THE SOVIET REGIME (1920-1930s.)

**N.Z.MAMMADOV**

**SUMMARY**

The article examines the expansion of the peasant movement and popular uprisings against an autocratic, predatory and strict policy of XI Red Army against Azerbaijan. It is shown that the integral part of the growing peasant movement against the existing regime and misguided policies of the Soviet power was the national liberation movement to protect the political and constitutional rights.

**Key words**: Soviet, authorities, Az.CEC, peasant movement, politics, rebellion, fists